# Pakistan Azərbaycanı bütün məsələlərdə daim dəstəkləyir

Dünən Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova ölkəmizdə səfərdə olan Pakistanın Federal Ombudsmanı, Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Prezidenti Syed Tahir Şahbaz, eləcə də Asiya Ombudsmanlar Assosiasiyasının icraçı katibi Abdul Xaliqlə görüşdü.

Görüşdə qonaqlara VI Beynəlxalq Humanitar Forumla bağlı məlumat verən Bahar Muradova dinamik inkişaf tempinə malik olan Azərbaycanın son zamanlar bir çox əhəmiyyətli beynəlxalq tədbirlərə evsahibliyi etdiyini vurğuladı.

Bahar Muradova ölkəmizdə Ombudsman institutunun yarandığı ildən bu günə qədər fəaliyyətini dəyərləndirərək Bakıda Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Direktorlar Şurasının 21-ci iclasının keçirilməsinə də toxundu. Qeyd edildi ki, hər bir ölkədə iqtisadi, sosial inkişafa nail olmaqla yanaşı, insan hüquqlarının qorunması bu inkişafdan necə yararlana biləcəyi gündəmə gətirilməlidir. Keçirilən iclas isə ölkələr arasındakı əlaqələrə öz töhfəsini verir.

Pakistan və Azərbaycan arasında uzun tarixə söykənən əlaqələrin mövcud olduğunu xatırladan Bahar Muradova söylədi ki, bu səfər dövlətlərarası əlaqələrin inkişafına da öz töhfəsini verəcək.

Görüşdə həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Qeyd edildi ki, Pakistan həmişə bu məsələdə Azərbaycana öz dəstəyini göstərib. Azərbaycan da öz növbəsində Kəşmir məsələsində Pakistana dəstək olur. Bahar Muradova Azərbaycan tərəfindən Pakistana ədalətli mövqeyinə görə təşəkkürünü çatdırdı.

Görüşdə AOA-nın prezidenti, Pakistanın Ombudsmanı Syed Tahir Şahbaz ölkələrimiz arasında yaxşı inkişaf edən mədəni, diplomatik əlaqələrin olduğunu söylədi. Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğu bir daha xatırladıldı. Qonaq bildirdi ki, Pakistan bütün məsələlərdə, xüsusilə də Dağlıq Qarabağ məsələsində həmişə Azərbaycana dəstək verir. Pakistan da Kəşmir məsələsində həmişə Azərbaycanın dəstəyinə ehtiyac duyur.

Asiya Ombudsmanlar Assosiasiyasının icraçı katibi Abdul Xaliq isə hazırda inkişaf etməkdə olan ölkələrdə bəzən insan hüquqlarının pozulduğunu diqqətə çatdırdı. Bildirildi ki, ölkələrdə məhz buna görə insan hüquqlarının təmin edilməsi məqsədi ilə ombudsman institutları yaradılıb. Bu da yaxşı idarəçiliyə, bu isə öz növbəsində dayanıqlı inkişaf məqsədlərinə nail olmağa gətirib çıxarır. İcraçı katib Azərbaycanın ombudsmanı Elmira Süleymanovanın fəaliyyətinin bütün ölkələrdə yüksək qiymətləndirildiyini də qeyd etdi.

Görüşdə iştirak edən ombudsman Elmira Süleymanova öncə Asiya Ombudsmanlar Assosiasiyasının (AOA) Direktorlar Şurasının 21-ci iclası barədə qısa məlumat verdi. Bildirildi ki, iclasın yekununda ombudsmanlar arasında gələcəkdə də qarşılıqlı məsləhətləşmələrin aparılması və əməkdaşlığın gücləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinə dair ümumi razılığa gəlinib. Elmira Süleymanova assosiasiya üzvləri tərəfindən irəli sürülən təkliflər əsasında gələcək əməkdaşlığa dair hazırlanacaq iş planının Bakı prinsipləri üzərində qurulacağına ümidvarlığını ifadə etdi. Qeyd edildi ki, qəbul edilən Bakı prinsipləri 90 ölkənin rəyini, əqidəsini ifadə edir.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 2 noyabr.- S.2.